**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№289/5** **25 avqust 2017-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası haqqında Əsasnaməyə dəyişikliklər edilməsi barədə**

“Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi”nə, Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2017-ci il 31 yanvar tarixli 285/3 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti bazarında haqsız rəqabətin əlamətləri" ilə bağlı dəyişikliklər edilməsi barədə qərarının 3-cü bəndinə, habelə “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi ilə əlaqədar olaraq Auditin hüquqi təminatı və standartlaşdırma idarəsi (M.Abbasov) və Palatanın Şurası yanında Qanunvericilik və hüquqi məsələlər üzrə komitə (E.İbrahimov) tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası haqqında Əsasnaməyə dəyişikliklər edilməsi barədə hazırlanmış təklifləri müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR :**

Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası haqqında Əsasnaməyə aşağıdakı dəyişikliklər edilsin:

1. Ümumi müddəalar bölməsinin 1.2-ci bəndində “aktlarından” sözündən sonra “və Auditorlar Palatasının üzv olduğu beynəlxalq təşkilatlara üzvlük öhdəliklərindən” sözləri əlavə edilsin.
2. “Şuranın hüquqları” bölməsində 11-ci abzasda “haqqının” sözündən sonra “və rəsmi icazə haqqının” sözləri çıxarılsın.
3. “Şuranın hüquqlar” bölməsində 13-cü abzasda “Lisenziyanın” sözü “icazənin” sözü ilə əvəz edilsin”.
4. 15-ci abzasda “təşkilatlarına” sözündən sonra “və onların auditorlarına” sözləri əlavə edilsin.
5. 15-ci abzasdan sonra “Auditor xidməti sahəsində aparılmış yoxlamaların və araşdırmaların nəticələri üzrə sərbəst auditorlara, auditor təşkilatlarına və onların auditorlarına qarşı intizam tənbehlərinin tətbiqinə dair qərar qəbul etmək” yeni abzası əlavə edilsin.
6. 18-ci abzasda “konvensiyaları” sözü “memorandumları” sözü ilə əvəz edilsin.
7. “Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası haqqında Əsasnaməyə edilmiş dəyişikliklər” “Audit.Qanunvericilik və normativ sənədlər” toplusunun nəşr ediləcək 9-cu cildinə daxil edilsin.
8. Bu qərarın və “Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası haqqında Əsasnaməyə edilmiş dəyişikliklər”in Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**